# ÜMUMİ TƏHSİL SAHƏSİ ÜZRƏ 2011-Cİ İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT

2011-ci ildə şöbənin fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin "Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında" 2007-ci il 04 sentyabr tarixli 2373 nömrəli Sərəncamının icrası, TSİL çərçivəsində "Kurikulum islahatı" alt komponenti üzrə icra planında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi, yeni fənn kurikulumu tətbiq olunan siniflərdə tədrisin vəziyyətinin öyrənilib təkliflərin hazırlanması, beynəlxalq təşkilatlarla əməkdaşlıq sahəsində işlərin təşkili, fənn olimpiadalarının keçirilməsi, nəticələrin ümumiləşdirilməsi və digər məsələlərin həllinə yönəldilmişdir.

1. Hesabat dövründə Təhsil Sektorunun Inkişafi Layihəsi çərçivəsində «Kurikulum islahatının davam etdirilməsi və kurikulumun tətbiqinə dəstək» alt-komponenti üzrə görülmüş işlərə dair rüblük hesabatlar hazırlanmış, 2011/2012-ci dərs ilində IV siniflərdə yeni kurikulumların tətbiqi ilə əlaqədar hazırlıq işləri aparılmış, tanınmış mütəxəssislərin, müəllimlərin, ümumtəhsil məktəbləri rəhbərlərinin, ictimaiyyətin nümayəndələrinin iştirakı ilə geniş müzakirələrdən sonra Nazirliyin 23.07.2011-ci il tarixli, 923 nömrəli əmri ilə respublikanın təlim Azərbaycan və qeyri dillərdə aparılan ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün yeni fənn kurrikulumlarının tədris planları təsdiq edilmişdir.
2. "İstedadlı şagirdlər üçün xüsusi lisey sinfinin təşkili barədə" Təhsil nazirinin 22.06.2010-cu il tarixli, 835 nömrəli əmrinə əsasən, Gəncə, Mingəçevir, Sumqayıt, Şirvan şəhərləri və Quba, Ağdaş, Şəki, Lənkəran rayonlarının hər birindən seçilmiş 1 məktəb, cəmi 8 məktəbin V-VI lisey sinifləri üçün tədris planı təsdiq olunmuş, şagird qəbulu ilə əlaqədar təşkilati işlər görülmüşdür.
3. Azərbaycan Respublikası Prezidentinin 17 aprel 2006-cı il tarixli, 1414 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)"nın icrasının yekunlarına dair Təhsil Nazirliyində keçirilmiş kollegiya materialı hazırlanmış və müzakirə olunaraq müvafiq qərar qəbul edilmişdir. Həmin kollegiya qərarına uyğun olaraq, "2012-2013-cü illərdə istedadlı uşaq və gənclərlə iş sahəsində həyata keçiriləcək tədbirlər üzrə Fəaliyyət Planı" hazırlanıb təsdiq edilmişdir. "2008-2011-ci illərdə keçirilmiş "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" müsabiqələrinin nəticələri haqqında" da kollegiyada məsələ müzakirə edilib müvafiq qərar qəbul olunmuşdur.
4. 2011-2012-ci dərs ili üçün ümumtəhsil məktəblərinin tədris planları hazırlanıb, Nazirliyin 12.06.2011-ci il tarixli, 1207 və 1208 nömrəli əmrləri ilə təsdiq olunmuş, kitabça şəklində 5000 nüxsə çap edilərək yerlərə çatdırılmışdır. Həmçinin lisey və gimnaziyaların, sağlamlıq imkanları məhdud uşaqlar üçün təhsil müəssisələrinin tədris planları da hazırlanıb təsdiq edilmişdir.
5. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümü münasibətilə 27.04.2011-ci il tarixdə Zərifə Əliyeva adına məktəbdə inşa yazı müsabiqəsinin respublika mərhələsi keçirilmişdir. Qaliblərin inşa yazılarından ibarət "Heydər Əliyev məktəblilərin gözü ilə" adlı növbəti kitab nəşr edilmiş, onlara diplomlar, müxtəlif təşkilatlar tərəfindən hədiyyələr və pul mükafatları verilmişdir.
6. 2011-cu ilin yanvar ayında məktəblilərin fənn olimpiadalarının 7 fənn üzrə rayon, mart ayında isə respublika turu keçirilmişdir. Həmin turda 1132 şagird iştirak etmiş, onlardan 391 nəfər I-IV yerləri tutmuşdur. Respublika olimpiadasında qalib gəlmiş şagirdlər diplom və fəxri fərmanlarla təltif olunmuş, I dərəcəli diplom almış şagirdlərin müəllimlərinə pul mükafatı verilmişdir.
7. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında" 2007-ci il 04 sentyabr tarixli, 2372 nömrəli Sərəncamının icrası ilə əlaqədar 2010/2011-ci dərs ilində də müsabiqələrin səmərəli keçirilməsi məqsədilə Təhsil Nazirliyinin rəhbərliyi və məsul əməkdaşları, milli və beynəlxalq qeyri-hökumət təşkilatlarının nümayəndələrindən ibarət ictimai əsaslarla fəaliyyət

göstərən Təşkilat Komitəsi, hər iki müsabiqədə iştirak üçün təqdim edilmiş sənədləri qeydiyyata almaq və "Qaydalar"da müəyyən edilmiş şərtlər üzrə onların ekspertizasını aparmaq üçün ekspert qrupları yaradılmışdır. 2010/2011-ci dərs ilində də Naxçıvan MR üçün "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinə 3, "Ən yaxşı müəllim" müsabiqəsinə 5 kvota ayrılmışdır.

"Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsində respublikanın əksər bölgələrini təmsil edən 145 məktəb Təşkilat Komitəsinə müraciət etmişdir. Əvvəlki illərdə olduğu kimi, bu il də iştirakçılar arasında Bakı şəhərinin məktəbləri üstünlük təşkil etmiş, 145 məktəbdən 63-ü Bakı şəhərinin məktəbləri olmuşdur. Qalan 82 məktəb isə 36 kənd rayonunu və 3 şəhəri təmsil etmişdir.

Müsabiqənin II mərhələsinin nəticələri **IX** və **XI** sinif şagirdlərinin fənlər üzrə sınaq imtahan yoxlamasında göstərdikləri keyfiyyət göstəricilərinə əsasən müəyyən edilmişdir. Müsabiqənin III mərhələsində, yəni məktəb direktorlarının təqdimatı mərhələsində ən yüksək nəticəni Tovuz şəhəri Mahir Ələkbərov adına tam orta məktəbin direktoru Namiq Əliyev və Cəlilabad şəhəri 8 nömrəli məktəb-liseyin direktoru Səxavət Şirəliyev göstərmiş, onların hər birinin təqdimatı 10 balla qiymətləndirilmişdir.

"Ən yaxşı müəllim" müsabiqəsində iştirak üçün 425 nəfər müəllim sənəd təqdim etmişdir. Müsabiqə şərtlərinə uyğun gəlmədiyi üçün 10 nəfərin sənədləri qəbul edilməmişdir. Beləliklə, 415 nəfərin sənədləri ekspertizadan keçirilmişdir. "Qaydalar"dakı şərtlər əsas tutulmaqla iştirakçı müəllimlərin fəaliyyətini əks etdirən 16 parametr üzrə göstəricilər hər birinə müvafiq əmsal tətbiq olunmaqla qiymətləndirilmiş və hər müəllimin birinci mərhələ üçün yekun balı müəyyənləşdirilmişdir. Təşkilat Komitəsinin qərarına əsasən, minimum 1.3 bal növbəti mərhələyə keçid üçün məqbul hesab edilmiş, beləliklə 1.3 və daha çox bal toplayan 217 nəfər nöbvbəti mərhələdə iştirak etmək hüququ qazanmış, 198 nəfər müsabiqədən kənarda qalmışdır.

Müsabiqənin ikinci mərhələsi 2011-ci il fevralın 15-də başlanıb aprelin 21-də yekunlaşdırılmışdır. Hər bir sınaq dərsi videolentə alınmış, dərs bitdikdən dərhal sonra onun müzakirəsi aparılmışdır. Sınaq dərsləri "Qaydalar"da qeyd edilmiş istiqamətlər ciddi nəzərə alınmaqla Təşkilat Komitəsində razılaşdırılmış 12 göstərici üzrə qiymətləndirilmişdir. Müsabiqənin yekununda hər üç mərhələnin balları əsasında müəllimlərə yekun bal müəyyən edilmiş və ən yüksək nəticə göstərən 95 nəfər müəllimin siyahısı hazırlanmışdır.

8. Yeni fənn kurikulumunun tətbiqi vəziyyəti ilə bağlı Astara, Biləsuvar, Xaçmaz, Qusar, Qazax, Samux, Şəki, Zaqatala rayonlarının ümumtəhsil məktəblərində şöbənin əməkdaşları tərəfindən araşdırmalar aparılmışdır. Araşdırmaların nəticələri Təhsil Nazirinin 04.07.2011-ci il tarixli, 1204 nömrəli əmri ilə rəsmiləşdirilmiş, müvafiq qərar qəbul edilmişdir.

9. Şagirdlərin, müəllimlərin, valideynlərin və ictimaiyyətin digər nümayəndələrinin maarifləndirilməsi və dəstəklənməsi üçün nəzərdə tutulmuş www.kurikulum.az portalının təkmilləşdirilməsi üzrə işlər aparılmışdır: portalda fənn kurikulumları, nümunəvi elektron dərslər, habelə ixtiyari dərslər və onların ekspertlər tərəfindən təhlilinin elektron versiyaları, dərs planları, müxtəlif treninqlərin materialları, təlim və oxu materialları kataloqu, elektron dərs vəsaitləri, aparılmış tədqiqatların nəticələrini əks etdirən hesabatlar, KİV-də kurikulum islahatı ilə bağlı təşkil olunmuş verilişlərin elektron versiyaları, "Kurikulum" jurnalında dərc olunmuş yazıların elektron versiyaları yerləşdirilmişdir.

10. Portalın sual-cavab bölməsində ictimaiyyəti narahat edən 57 sual cavablandırılmışdır. Eləcə də Bakı şəhərinin 5, 18 nömrəli məktəblərində kurikulumların tətbiqi ilə əlaqədar seminarlar, nümunə dərsləri və sərgilər təşkil edilmişdir.

11. İl ərzində respublikanın 3 bölgəsində (Gəncə, Masallı, Zaçmaz) "Müasir dövrdə təhsilin davamlı inkişafı: reallıqlar və perspektivlər" mövzusunda konfranslar keçirilmişdir. Həmin konfransda 22 rayonun təhsil işçiləri iştirak etmişdir. Konfransların nəticələri pedaqoji mətbuatda geniş işıqlandırılmışdır.

12. Təhsil Nazirliyinin 12 yanvar 2011-ci il tarixli, 11/1340 №li əmrinə əsasən fənn kurikulumlarının tətbiqi sahəsində təhsil işçilərinə peşəkar səviyyəli metodik köməkliyin təmin olunmasına xidmət edən təlimçilər qrupunun hazırlanması məqsədilə məktəb direktorları və direktor müavinləri üçün respublikanın bir neçə şəhər və rayonunda treninqlər təşkil olunmuşdur.

13. Kənd rayonlarında ümumtəhsil məktəbləri olmayan yaşayış məntəqələri, ibtidai və ümumi orta məktəblərdən ən yaxın məsafədə yerləşən tam orta məktəblər, yaşı 100 və 100-dən çox olan məktəblər, yaşı 25-35 olan gənc istedadlı müəllimlər haqqında məlumatlar toplanılaraq ümumiləşdirilmişdir.

"İstedadlı gənc müəllimlərin fəaliyyətinin təkmilləşdirilməsi və stimullaşdırılması tədbirləri haqqında" Təhsil Nazirliyinin 15.07.2011-ci il tarixli, 1436 №li əmri verilmişdir.

15. Təhsil işçilərinin sentyabr konfranslarının keçirilməsi və yekunlaşdırılması istiqamətində təşkilati işlər vaxtında başa çatdırılmış, şöbənin əməkdaşları həmin konfranslarda iştirak etmişlər.

16. Respublikanın rayon və şəhərləri üzrə evdə təhsilə cəlb olunmuş şagirdlər haqqında məlumat hazırlanmışdır.

17. Məcburi köçkün məktəblərinin rayon və şəhərlər üzrə dislokasiyası, bu məktəblərdə təhsil alan şagirdlər, işləyən müəllimlər haqqında ətraflı məlumat toplanıb 10 formada cədvəl üzrə ümumiləşdirilmişdir.

18. Təlim gürcü dilində olan məktəblər, azsaylı xalqların uşaqlarının təhsili, eləcə də Gürcüstandakı təlim Azərbaycan dilində olan məktəblər haqqında məlumat hazırlanmışdır.

19. Ümumtəhsil məktəbinin I sinfinə uşaqların vaxtından əvvəl qəbulu ilə əlaqədar Nazirlikdə komissiya yaradılmışdır.

20. Təhsil Nazirliyinin 10.02.2011-ci il tarixli, 247 №li əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümünün təhsil müəssisələrində qeyd olunması haqqında"kı əmrə əsasən RTŞ-lərdən görülmüş işlər haqqında məlumatlar toplanılaraq ümumiləşdirilmişdir.

21. Azərbaycanın xalq yazıçısı Mirzə Əjdər oğlu İbrahimovun 100 illik yubileyinin keçirilməsi ilə əlaqədar hazırlanmış "Tərbirlər Planı"na əsasən respublikanın ümumtəhsil müəssisələrinin məktəbliləri arasında inşa müsabiqəsi keçirilmişdir.

22. İREX Beynəlxalq Təşkilatının İREX/MYP layihəsi ilə bağlı yerlərə təlimati məktublar və növbəti layihənin başa çatması ilə əlaqədar təqdimat hazırlanmışdır.

23. ABŞ-ın ACCELS təşkilatının FLEX Proqramı üzrə növbəti müsabiqəsinin keçirilməsi barədə Naxçivan MR Təhsil Nazirliyinə, Bakı və Gəncə Şəhər Təhsil İdarələrinə, Şəki, Mingəçevir və Lənkəran Şəhər Təhsil Şöbələrinə məktublar hazırlanmışdır.

24. AZETA təşkilatının Xəzər Universitetində müəllimlər gününə və British Council arasındakı əməkdaşlığın 15 illiyinə həsr olunmuş Beynəlxalq Konfransında (8 oktyabr 2011-ci il), 11 noyabr tarixində Park İnn mehmanxanasında yaranmasının 15 illiyinə aid keçirilmiş konfransda, 4 iyun 2011-ci il tarixdə respublikanın 15 rayonundan 83 müəllimin iştirakı ilə Xəzər Universitetində keçirdiyi forumda və 23 iyunda Qəbələdə Qafqaz Resort mehmanxanasinda keçirdiyi VIII regional konfransında şöbənin əməkdaşı iştirak etmişdir.

25. "Sülh korpusu" Beynəlxalq təşkilatının 2011-ci il mart aprel aylarında VIII qrup və noyabr ayında keçirilmiş İX qrup könüllüləri və onların tərəfdaşları üçün "Tərəfdaş müəllimlərlə səmərəli birgə işin təşkili", həmçinin "İcma əlaqələndiriciləri" konfranslarında, 8.122011-ci il tarixdə doqquzuncu qrup könüllülərinin andiçmə mərasimində şöbənin əməkdaşı iştirak etmişdir.

26. Vətəndaşlardan Nazirliyə daxil olmuş şikayət ərizələrini şöbənin əməkdaşları yerində araşdırmaq məqsədilə rayonlara ezam olunmuşlar. Ağsu (şəhər 3 nömrəli tam orta məktəbi), Quba (Barlı və II Nügədi kənd tam orta məktəbləri), Biləsuvar (Əliabad kənd tam orta məktəbi), Bərdə (şəhər 6 nömrəli və Mirzəxan kənd tam orta məktəbləri), Qusar (Xürel kənd tam orta məktəbi), Abşeron (şəhər 1 nömrəli tam orta məktəbi), Laçın (Şeylanlı və Qarakeçdi kənd tam orta məktəbləri), Beyləqan (I Aşıqlı kənd tam orta məktəbi) rayonlarında araşdırmalar aparılmışdır. Nəticədə işlərində yol verdikləri nıqsanlara görə Bərdə rayonu Mirzəxan kənd tam orta məktəbi və Ağsu şəhər 3 nömrəli tam orta məktəbinin direktorları vəzifələrindən azad edilmiş, digər məktəblərdə isə məsələlər yerində həll olunmuşdur.

27. Hesabat dövründə şöbə tərəfindən vətəndaşlardan və müxtəlif təşkilatlardan daxil olmuş 5417 müraciətlərə baxılmışdır. O cümlədən: ərizə və şikayətlər –3472, onlardan: müxtəlif təşkilatlardan daxil olan ərizə və şikayətlər - 1261 (nəzarət 110) (Pr.Adm, Milli Məclis, DİN,

Baş Pr, Ombudsman, N.K, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Ailə, Qadın və Uşaqların Pr. Üzrə Dövlət Komitəsi), məktəbə yerdəyişmə - 756, miqrasiya – 238, ən yaxşı müəllim – 466, ən yaxşı məktəb – 151, RTŞ-lərdən şikayət – 136, məktəb direktorundan şikayət – 179, dərs saatı barədə - 152, teleqram – 133, RTŞ-lərdən və müxtəlif təşkilatlardan daxil olan məktublar – cəmi: 1945 müraciətə cavab verilmişdir.